

Mübariz
QARAGÖZLÜ

## *Məni də səpin torpağa*

İnsan oğlu, toxunmasın
Topxanan, topun torpağa.
Axır, axirət evindi,
Sancıl və tapın torpağa.

Halalca ruzun kəsilər,
Çörəyin, duzun kəsilər,
Əbədi izin kəsilər,
Bağlanar qapın torpağa.

Üzüqoylu yıxıl, sürün,
Qoy torpağa olsun yönün!
Ağlar qalar ömrün-günün,
Nə vur, nə təpin torpağa!

Düyünü özü bağladı,
Özünə yaxın saxladı...
Bir ucu sənə bağlıdı,
Bir ucu ipin, torpağa!

Daş-kəsəyi kürüyəcəm,
Kotanımı sürüyəcəm.
Mayam varsa göyərəcəm,
Məni də səpin torpağa!

## *Qoşulub gedəcəm*

Mən də palaza bürünüb,
Elə qoşulub gedəcəm.
Necə bürünüb bələnsəm
Elə qoşulub gedəcəm.

Damla-damla yığa bilsəm,
Addım-addım axa bilsəm,
Bir kötüyü yıxa bilsəm,
Selə qoşulub gedəcəm.

Bilsəm ki, içim kiriyib,
Çör-çöpə dönüb, çürüyüb,
Başlı-bütünlü kürüyüb,
Yelə qoşulub gedəcəm.

Məni yaxını bilirsə,
Mənə toxuna bilirsə,
Məndə oxuna bilirsə,
Telə qoşulub gedəcəm.

Mənə nə var, qopub bir gün,
Dörd nal üstə çapıb bir gün,
Qəfil ölüm tapıb bir gün,
Belə... Qoşulub gedəcəm.

## *Keçmədim*

Sözlə yanaşı çaxdım da,
Səmtinə düşüb axdım da...
Sözlə yuxarı qalxdım da,
Sözdən yuxarı keçmədim!

Düzün dalınca yollandım,
Düzün könlünə calandım,
Düzün başına dolandım,
Düzdən yuxarı keçmədim!

Ölümə gülsəm utanar,
Olumsuz ölsəm, utanar.
Üz-üzə gəlsəm, utanar,
Üzdən yuxarı keçmədim!

Söz dünyam, ünvanım, adım,
Nizamim, Vurğunum, Hadim!
Siznən dünyalar adladım,
Sizdən yuxarı keçmədim!

Xudam, nurundan doymadım,
Eşqsiz dünyanı saymadım.
Bizim sevdamız qoymadı,
Bizdən yuxarı keçmədi!

## *Kimidi*

Sevdalının arzusu gül,
Vəfası arı kimidi.
Tale var əlvan görünür,
Ruhunda sarı kimidi.

Yol var göylərə sarıdı,
Yolçusu batdı-barındı...
Yol var, qocaldı, qarıdı
Yolları yarı kimidi.

Bənd-bərələr bilirəm ki,
Gen dərələr bilirəm ki,
Mən bərilər bilirəm ki,
Yönləri anrı kimidi.

Can var, mənə can əvəzi,
Beş əvəzi, on əvəzi.
Cəfası dərman əvəzi,
Səfası ağrı kimidi.

Bilinir yaralı adam,
Acılı-ağrılı adam.
Allahlı, Tanrılı adam
Özü də tanrı kimidi!

* * *

Gəl oturaq, gəl dərdləşək,
Gəl, könlümün düz adamı.
Bilirsən ki, adam olur
Adamların az adamı!

Bilmirəm! Guya bilirəm...
Adamdan doya bilirəm!?
Di gəl ki, qaya bilirəm
Bircə rəngdə - boz adamı.

Öz könlüncə olur həm də
Alana könül verəndə.
Adam özünü görəndə
Adam olur öz adamı.

Çıxmadı qadam içimdən,
İncidim, atam, içimdən!
İndi sən adam içindən
Adam axtar, göz adamı!

Adamları ötəcək yol,
Adamlıqda bitəcək yol!
Sən özündən göz-qulaq ol,
Adamların göz adamı!